NƏ ZAMAN OLSA

ŞAİRİN YAZDIĞINI

Şair olan gerçəyi yalana yoza bilməz,
Kədərə tutulunca sevincdən yaza bilməz,
Şair olan yolunu heç zaman aza bilməz,
Şairin yazdığını fələk də yoza bilməz...

1986

ZALIM OVÇU

Zalım bir ovçunun zalım övladı
Ceyran yavrusunu düzdə qovladı,
Qovladı tüfənglə avtomobillə,
Ovladı mələyi iblis, ovladı...

1986

ƏRZURUMUN GƏDİYİNƏ VARANDA

Ərzurumun gədiyinə varanda,
Türkü deyib, Kərəm kimi alışdım,
Göz yaşımı gizləməyə çalışdım,
Ərzurumun gədiyinə varanda.

Ərzurumun gədiyinə varanda,
Gördüm qartal oylağına varmışam,
Quzğunların öfkəsini yarmışam,
Ərzurumun gədiyinə varanda.

Ərzurumun gədiyinə varanda,
Yoxa çıxdı içimdəki darlığım,
Bu varlığa ayna oldu varlığım,
Ərzurumun gədiyinə varanda.

Ərzurumun gədiyinə varanda.
Göy gurladı, şimşək çaxdı, sel axdı,
Onda gördüm bölük-bölük el axdı,
Ərzurumun gədiyinə varanda.

Ərzurumun gədiyinə varanda,
Öz əlimlə öz yaramı saranda,
Gözlərimdə yaylaq oldu aran da,
Ərzurumun gədiyinə varanda.

İstanbul, 1984

GƏLƏR

Yamanlıq eyləyən abdal olmalı,
Yaxşılıq igidin əlindən gələr.
Qartalın yavrusu qartal olmalı,
Yarasa yarasa belindən gələr.

Günəşsiz, dünyaya şəfəq saçılmaz,
Ulduzdan qaçılmaz, aydan qaçılmaz,
Heyvanın aləmdə dili açılmaz,
İnsana nə gəlsə dilindən gələr.

Yadlara yaranmaq qeyrətdən deyil,
Bu illət sağalan illətdən deyil,
Şairin şöhrəti qürbətdən deyil,
Vətənindən gələr, elindən gələr.

İGİD ƏRLƏR

İgid ərlər ölümdən qorxmayan ölməz ərənlərdir,
İgid orlər döyüşdə ad alıb da can verənlərdir.
İgid ərlər ölümlə ömrünü üzləşdirənlərdir,
Ulusla yurdu bağrında ölümsüzləşdirənlərdir!..

TƏBİƏT QARŞISINDA

Böyüklər bir çocuqdur məhəbbət qarşısında,
Cavahir qiymət almaz o sərvət qarşısında,
Könül şairlənirkən təbiət qarşısında,
Xəyalım cövlan eylər həqiqət qarşısında!

Könüldən sevməyən yox gözüm, canım baharı,
Umulmaz müjdələrdir baharın yadigarı,
Gözəl sənətlərin ki şeirdir tacidarı,
Ərənlər səcdə eylər o dövlət qarşısında.

Nə aləmdir bu aləm, nə cənnətdir bu cənnət,
Gözəlliklərlə parlar, gözəlliklərdə ziynət,
Gözəl bir türkü ötmək səadətdir, səadət,
Kimin ruhu açılmaz o hosrət qarşısında?!

Həyatda mutluluq yox, sevinc yox bir salıqsız,
Umulmaz yaxşılıqdır, olursa qarşılıqsız,
Sevilməz candan ancan gözəllər yaxşılıqsız,
Nəzakət parlamazmı məlahət qarşısında?!

O şair ki tutulmuş dərin sevdaya az-maz,
O, bir şimşək ki dibsiz qaranlıqda yol azmaz,
Bir afət sevməyənlər bir ülvi şeir yazmaz,
Gərək şair baş əysin bir afət qarşısında!

Saralmaz bir çələngdir mənim hisslərlə hörgüm,
Odur ki, dadlı-dadlı ötər dillərdə türküm,
Cəhalət carçısından ömürlük yoxdur hürküm.
Zəka aciz qalarmı cəhalət qarşısında?!

Udum Qorqud Atamdan qalan uddur, Rəfiqim,
Bu ad şəfqətlə çarpan yaşıl oddur, Rəfiqim,
Neyim yurd, tanburum yurd, sazım yurddur, Rəfiqim,
Xəcalət qalmaram mən bu millət qarşısında!..

1986

GÖZƏLİM

Gözlərin könlümə biganə kəsilmiş gözəlim,
Yarışırsan qara sevdalı bir şairləmi sən?!
Dəli könlüm sənə divanə kəsilmiş, gözəlim,
Saçlarınla onu Məcnun kimi zəngirləmisən.

1986

AX, ANNƏ!..

Gözündə şanlı yurdun,
Gözəlliyə uyurdun
Sən oğluna duyurdun
Ömür nə, can nə, annə,
Ax, annə, annə, annə!

Könül olarmı cansız?
Sevinci, dərdi sonsuz,
Ulusdur annəm, onsuz
Şərəf nə, şan nə, annə,
Ax, annə, annə, annə!

Ölüm ki sıldırımtək,
Nəcür onu qırım tək?!
Bu canı yıldırımtək
Vurub yaxan nə, annə?
Ax, annə, annə, annə!

1986

ULDUZLARA QARŞI

Bir yaz gecəsində uca bağlar üzərindən
Ulduzlara dalmaq nə gözəldir!

Əfsanə gözəllikləri duyduqca dərindən
Daldıqca ucalmaq nə gözəldir!

Dolğun Ayı köynəkdən alıb kökdə qalınca
Bir saz kimi çalmaq nə gözəldir!

Bir incə bulud duyğulara pərdə, salınca
Bir pərdədə qalmaq nə gözəldir!

Hisslərlə, əməllərlə, diləklərlə coşub da,
Ruhunca kam almaq nə gözəldir!

Könlümdəki özləmlərə bir şer qoşub da,
Bir türküyə salmaq nə gözəldir!

1988

SEVMƏK

Sevmək nə deməkdir?!
Cənnət deyilən nəşəli xülya kimi bir şey!
Sevmək nə deməkdir?!
İksir dolu peymanə deməkdir,
Sevmək! O bu dünyada o dünya kimi bir şey!

Sevmək nə deməkdir?!
Yelkənli qayıqlar dolu dərya kimi bir şey!
Sevmək nə deməkdir?!
Varlıqda bir əfsanə deməkdir!
Əfsanəli "Məcnun ilə Leyla" kimi bir şey!

Sevmək nə deməkdir?
Parlaqlığı aydın qara sevda kimi bir şey!
Sevmək nə deməkdir?!
Canbir iki divanə deməkdir,
Sevmək yarı gerçək, yarı röya kimi bir şey!..

1988

BİR DAŞ

Bir daşa rastladım Qobustanımda,
O daşa çevrilən gülüstanımda.

Möcüzə yapmışdı zaman fırçası,
Yoxluğa varmışdı qaya parçası.

Sandım Müşfiqimin başdaşıdır o,
Könlümün daşlanan gözyaşıdır o.

O daş bənzəmirdi adi daşlara,
Sanki söyləyirdi ulusdaşlara:

"İçimdə bir sir var, gərək deyəm mən,
Qalmışam bu yerdə, qoyun qalım da!

Çökmüş bir qalanın son bürcüyəm mən,
Yenə də durmuşam əski halımda!.."

1987

* * *

Ulayan bayquşu susdur ki, o bir kabusdur,
Qara kabusdur o, susdur onu, qardaş, susdur!..

1987

GERÇƏK ARZU

Araz mənim can sirdaşım,
Könüldaşım, ömürdaşım,
Ey yurddaşım, ey qardaşım,
Sanma axan sudur Araz.

Ondadır ürəyin, canın,
Dalğa-dalğa həyəcanın,
Ayrılmış Azərbaycanın
Hissi, duyğusudur Araz.

Ulusa yasaq adların,
Yabançıların, yadların,
Əliqanlı cəlladların
Bizdən qorxusudur Araz.

Neylər ona iri cırtdan,
Güc alır ulusdan, yurddan
Aya çıxan ulu qurddan
Süd əmmiş quzudur Araz.

Sahili yox diləyinin,
Alovu var küləyinin,
Yurddaşların taleyinin
Yurda sorğusudur Araz.

Dərdi için-için olan,
Sevdası göyərçin olan,
Sabah Xəzərdə çin olan
Kürün yuxusudur Araz.

Alçaqların, dəyyusların,
Satqınların, casusların,
İşğalçı binamusların
Sanma qurğusudur Araz.

Savalan vüqarımızın,
Əyilməz Qoşqarımızın,

Atar damarlarımızın
Canlı vurğusudur Araz.

Şəhidlər bölüklərinin,
İgidlər böyüklərinin,
Azərbaycan türklərinin
Gerçək arzusudur Araz!

1977

QURTULUŞ BAYRAMI

Səsimi türkülərimlə yayıram,
Adlayır duyğularımdan bu qoşun!
Qurtuluş bayramını qutlayıram,
Qutlu olsun, ulusum, qurtuluşun!..

Ankara, 1986

GÖZ YAŞLARIM

Ey mənim yurddaşlarım, qardaşlarım,
Zillətə düşmüş ömür sirdaşlarım!
Ağlaram, yandıqca bağrım, ağlaram,
Yanğımı söndürməyir göz yaşlarım!

1990

VAY O GÜNDƏN

Dostsuz insan qara bayquş, çünki
Gərək ülfətlə əzizlənsin dost.
Vay o gündən o qədər dönsün ki,
Görüb öz dostunu gizlənsin dost.

1987

İNSAN SEVGİSİ

Yaşasın ölümə üsyan eyləyən,
Həyatın canıdır cahan sevgisi.
Dünyada insanı insan eyləyən
İnsan sevgisidir, insan sevgisi.

1987

GÖSTƏRİN

Gülə candan, könüldən aşiq olan bülbülə
Başqa bir gül göstərin, aşiq olsun o gülə...

1987

BİR CAHİLƏ

Başına böylə fikir gəlmiş ki,
Bir ozan da sənə üstün gəlməz.

Anlamazsan ulu şair nə demək,
Ulu şair ulu divanə demək!

Öylə bir zirvəyə yüksəlmiş ki,
Oraya hətta səsin yüksəlməz!..

1989

CANIM İSTANBUL

Canım İstanbula candan vurulub, can bul da,
Can desən, can eşidərsən canım İstanbulda.

1989

QARASAQQALLAR

Qarasaqqallara bel bağlamada daşnaklara,
Qara əllər uzadır bizlərə çalçaqqallar.
Qarabağ onları bir gün qarabaxt eyləyəcək,
Bir daha alçalacaqdır o quduz alçaqlar!

1989

NEÇƏ İNSAN SİFƏTLİ

Kimsəyə yer üzündə bəsləmə kin,
İnan insanlara, inan, lakin
Yaxşı göz qoy ki, yaxşı var, pis var,
Neçə insan sifətli iblis var!..

1986

YAZMAYA BİLMƏZ

Bir şairə susmaq yaraşarmı?
Duyduqlarını yazmaya bilməz.
İnsan nəfəs almazsa, yaşarmı?
Şair də şeir yazmaya bilməz!..

BAĞDA

Dayanıb baxdı qoca,
Hər kola, hər ağaca.
Söylədi: göz qoyuram,
Həvəsin var, duyuram!
Gündə yanmış bədənin,
Görürəm burda sənin
Əməyin çoxdur, oğul,

Köməyin yoxdur, oğul.
Köməyn olsa, o vaxt
Cənnət olmazmı bu bağ?!

1986

SONRA

Mən sənin haqda nə duydumsa, ürəkdən yazdım,
Ruhunu, varlığını hiss edərəkdən yazdım!

Könül oxşar o şerlər ki, könüldən yazılar,
İki qəlb birgə vururkən kədər, illət azalar.

Bir sevinc dalğalanar, dərdi böləndən sonra,
Biri susmaz, biri ilhama gələndən sonra.

Külə dönməz alışıb odlu əməllərlə yanan,
Ellərin zövqünə olmaz yasaq ellərlə yanan.

Ey qələm yoldaşım, ərdəmli könüldaşsansa,
Bir gönüldaş kimi candan mənə yoldaşsansa.

Sən mənim haqda yazarsan mən öləndən sonra,
Həsrətimlə mənim ilhama gələndən sonra.

1983

ÇIRPINMA

Bir günəşdir ucalıqlarda, yenilməz sevgi,
Onun aləmdə vüsal bayramı, hicran yasıdır.

Birtərəfli qala bilməz, ola bilməz sevgi,
Sevgi aşiq iki qəlbin qoşa çırpınmasıdır!..

1975

GÖRÜNMƏZ

Dağların başını duman alıbdır,
Dumanın üzündən dağlar görünməz.

Duman ətəklərə kölgə salıbdır,
Çağlayan bulaqlar çağlar, görünməz.

Dağların köksünü dağlamaq olmaz,
Dağların köksündə dağlar görünməz.

Torpağa bağlıdır damarlarıyla,
Özüllər görünməz, tağlar görünməz.

Dağları zəncirlə bağlamaq çətin,
Dağların boynunda bağlar görünməz.

İldırım qoparar qartallarıyla,
Dağlar heç bir zaman ağlar görünməz.

1985

* * *

O, insan deyildir, iri böcəkdir,
Tapdanılmayınca, dəbərəcəkdir.
İşığa çıxmadan, zülmət içində,
Üfunət içində gəbərəcəkdir.

GÜNƏŞ

Günəş insanlığa xidmət eylər,
Yapalaqlar ona nifrət eylər.

Neçə milyon yaşı vardır, əcəba
Nə zamandan o, səyahət eylər?!

İstəsə yoxluğa varlıq gətirər,
İstəsə varlığı zülmət eylər.

Onun eşqiylə yanar ulduzlar,
Ay onunla necə ülfət eylər!

Məncə, dünya bir əmanətdir ona,
Sanma dünyaya xəyanət eylər!

Ucalardan ucadır taxtı-tacı,
Kainata o, nəzarət eylər.

Tanrının nuru onun şəfqətidir,
Onu riqqətlə ziyarət eylər.

Haqqa heyran olan insanları o,
Haqqa, insanlığa dəvət eylər!..

* * *

Kimlərdir, bilsən, oğlum,
Qaranlığı dələnlər.

Ulusa könül verib,
Yurd uğrunda ölənlər.

Kimlərdir, bilsən, oğlum,
Yaşamağı bilənlər.

İnsanı sevmək üçün
Bu dünyaya gələnlər.

Kimlərdir, bilsən, oğlum
Yamanlığı silənlər.

Sevincin, dərdini
Yaxşılarla bölənlər.

Kimlərdir, bilsən, oğlum,
Çətin gündə gələnlər.

Kimlərdir, bilsən, oğlum,
Ərənlərdir, ərənlər!

SONU OLMALI

Varlıq öz sirrini saxlar özündə,
Yoxluq bir sınaqdır insan gözündə.
Sonu olmalıdır ömürlərin ki,
Hər şeyin sonu var bu yer üzündə.
Sonun qorxusu yox zülüm olmasa,
Həyat ola bilməz ölüm olmasa...

QUCAQLAŞMALI

Dərddən uzaq insandan uzaqlaşmalı insan,
Dərd anlayan insanla qucaqlaşmalı insan.

1979

SEVMƏYƏN KİMSƏ

Sevməyən kimsə nədir qüssə, nə anlar, gözəlim,
Qüssə nə anlamayan kimsə nə anlar, gözəlim?!
Sevilənlərlə sevənlər bilər aləm nə demək,
Sevgisiz bir ömür aləmdə bir əfsanə demək.

1986

GƏRƏKDİR

İdmançı deyil əldə oyuncaq,
İdmançı cavan yaşda gərəkdir.
Sağlam bədənin xeyri var, ancaq
İdmançılara baş da gərəkdir.

1970

ALÇAQLAR OLAN YERDƏ

Gözdən asılar pərdə,
Alçaqlar olan yerdə,
İnsan tutular dərdə,
Alçaqlar olan yerdə.

Alçaqlar olan yerdə
Gerçək sayılar şər də,
Urvatsız olar ər də
Alçaqlar olan yerdə.

Kim söz demək istər də
Alçaqlar olan yerdə,
Alçaqlığı get gör də
Alçaqlar olan yerdə.

Alçaqlar olan yerdə
Gözdən düşəcək nər də,
Mən rastlamadım mərdə
Alçaqlar olan yerdə.

1980

YERƏ GİRMİŞLƏR ÜÇÜN

Borc almamış ömründə atan kimsədən, oğlum,
Qaçmış tiyan altında yatan kimsədən, oğlum!

Moncə, ucalıqdır yaşadan insanı ancaq,
Əl açmağa ar eyləməz aləmdə bir alçaq!

Borc almağa adət edənin hörməti olmaz,
Qaytarmayanın qeyrəti, şəxsiyyəti olmaz!

Vicdanı olan bir kişi minnət götürərmi?!
Bir ömrü sülənməklə, sürünməklə sürərmi?!

Vicdanına ömrün boyu minnət yasaq olsun,
Alçaqların alçaqlığı səndən uzaq olsun!

Ərdəmli yaşa, ər kimi, ərdəmli xələf ol,
Ya göylərə qartal kimi yüksəl, ya tələf ol!

Mərd oğlu əyilməz bir ovuc daş-qaş ucundan,
Vicdanını məşəltək ayırmaz başucundan!

Yoxdur yer üzündə yerə girmişlər üçün yer,
Borc bil özünü yurda, nə borc al, nə də borc ver!

1984

* * *

Özün öz köksünə qoydun bir daş,
Uğrayıb təkliyə, qurdun bardaş,
Olmadın kimsəyə yoldaş, sirdaş,
Ağlamaqdan nə qazandın, qardaş?!

1985

* * *

Yurd ulus cövhəridir bir oğulun bağrında,
Oğul olmaq ulu bir ad daşımaqdır, oğlum!

Bir igid ər kimi yurdun, ulusun uğrunda
Şəhid olmaq yaşamaqdır, yaşamaqdır, oğlum!

1985

* * *

Sökülən dan yeri qanla siləcək qan yerini,
Tökülən qanmı sanırsan sökülən dan yerini?!

1985

* * *

Döndərir bayrama sanki yasını
Gecə açdıqca siyah çadrasını.

1985

NİYƏ ÜRKÜRSƏN

Neçə şerimdə görüb türk sözünü,
Vay dədə, vay deyə yumdun gözünü.
Yerə soxdun öz əlinlə özünü,
Öz-özündən niyə ürkürsən sən,
Türk sözündən niyə ürkürsən sən?!

Məgər olmuşmu yasaq ovqata türk?!
Çıxmasa fitnə, çıxarmaz xata türk!
Yer üzündə yer alıbdır Atatürk,
Yer üzündən niyə ürkürsən sən,
Türk sözündən niyə ürkürsən sən?!

A yazıq, at bu yazıqlıq daşını,
Sanma qan düşməni qan qardaşını,
Türk demişkən, o dul arvad yaşını
Sil gözündən, niyə ürkürsən sən,
Türk sözündən niyə ürkürsən sən?!

Sabirin hər sözü bir ibrət olur,
Ağladıqca kişi biqeyrət olur!
Neçin aləm gözünə zülmət olur?
Gündüzündən niyə ürkürsən sən?
Türk sözündən niyə ürkürsən sən?!

Bir canın var, o da er-gec gedəsi,
Qalır "Orxon-Yenisey abidəsi!"
Dədə Qorqud, o oğuzlar dədəsi
Türküsündən niyə ürkürsən sən,
Türk sözündən niyə ürkürsən sən?!

Daşlamı susdurulubdur ağızın?
Quruyar, qurd deyən olsa, boğazın,
Sürünən bir sürü insancığazın
Tülküsündün niyə ürkürsən sən,
Türk sözündən niyə ürkürsən sən?!

1984

ÖZ ARAMIZDA

Bir qoşma söyləyim, onu
Kimsə yozmaya, yozmaya,
Redaktor bir bəndini də
Kaş ki, pozmaya, pozmaya.

Bu incə bir istək kimi,
Ariflərə örnək kimi,
Qaranlıqda şimşək kimi
Çaxıb azmaya, azmaya.

Söhbət açaq bir adamdan,
Özünü çəkən avamdan.

Əsərlərində ilhamdan
Yoxdur az maya, az maya...

Gizlidədir mərəzləri,
Hiylələri, qərəzləri,
Çətin ki hirsli gözləri
Mənə qızmaya, qızmaya.

Onun oxu daşa keçib,
Ömrü-günü boşa keçib,
Necə olub, başa keçib,
Heç nə yazmaya-yazmaya?!

1984

BU ÜFÜQLƏR

Bu üfüqlər ucu yox ümman ki,
O qədər boş, o qədər pünhan ki,
Sıldırımlarını sarıb çevrəsini,
Uçurumdur bu üfüqlər sanki.

YAVAŞ-YAVAŞ...

Andırır yarı gözlərimdəki yaş
Oyanır sanki varlığımda təlaş,
Ürküler titrəyir içimdə mənim,
Türküler səslənir yavaş... yavaş...

BU VARLIQDA

Sevgidir, məncə, bəxtiyarlıq da,
Ulusa sevgidən əzəl şey yox.
Sevgilərlə dolan bu varlıqda
Yurdu sevmək qədər gözəl şey yox!

BURA MÜSTƏMLƏKƏMİ?!

Dedi: müstəmləkədir yurdum, aman, ağlayaraq,
Öz əliylə özü öz mənliyini dağlayaraq.

Bu dedi, xalqıma aləmdə böyük bir ləkədir,
Yazıq olmuş o ulus ki, adı müstəmləkodir!

Özün öz bağrına dağ çəkmə, qəhərlənmə, dedim,
Acı müstəmləkə qəhriylə zəhərlənmə, dedim.

Bura müstəmləkəmi, yox, bu tamam başqa cəfa,
Nə dəva var ona dünyada nə məlhəm, nə şəfa!

Çünki müstəmləkələr mənliyini əyməzlər,
Ruhuna əsla toxunmaz, dilinə dəyməzlər.

Adəti, ənənəsi, musiqisi, şeri durar,
Tarixi, təntənəsi, mənzərəsi, seyri durar.

Yer üzündə var əsrlər boyu müstəmləkələr,
Gündə üsyan edir eldə, çıxarır mərəkələr!

Çox da müstəmləkədir, təhrif olunmur ki adı,
Qondarılmır, dəyişilmir kökü, itmir soyadı.

Hankı müstəmləkə xalq sürgün edilmiş, nə zaman?
Səsi, haqqı alınıb, ölgün edilmiş nə zaman?!

Hankı müstəmləkə yurd doldurulub yadlarla,
Şairi susdurulub ölkədə cəlladlarla?!

Hankı müstəmləkə xalq oxlanıb öz taxtında,
Doğmalar tabe olub yadlara paytaxtında?!

Hankı müstəmləkə yurd əsnəbi adlarla dolub,
Küçələr xalqa yasaq yapma soyadlarla dolub?

Hankı müstəmləkə xalq öz dilinə həsrət olub,
Hankı müstəmləkə yurd parçalanıb, qarət olub?!

Ey zavallı, dedim, ey kaş, dediyin gerçək ola,
Bura müstəmləkəmi, yox, bu tamam başqa bəla!

Bura müstəmləkəmi? Yox! Demə müstəmləkədir,
Bu cəfanın adı yoxdur, bu böyük təhlükədir!..

1984

GƏLƏN AĞLAR, GEDƏN AĞLAR

Bir gözlə ölüm hər kəsə baxmaqda əzəldən,
Yoxdur ona varlıqda gülün fərqi xəzəldən.

Yox bir cavanın bir qocadan fərqi onunçün.
Olmuşmu məhəbbətlə ötən şərqi onunçün?!

Bi yavruya, bir ifritə bir gözlə baxar o,
Bir qönçəni şimşək kimi bir anda yaxar o.

Yox fərqi onunçün mələk olsun, ya da şeytan,
Yox fərqi onunçün ola dahi, ola nadan.

Yox fərqi onunçün ya kasıbdır, ya da zəngin,
Yox fərqi onunçün ya gözəldir, ya da çirkin.

Həm yüksəyə, həm alçağa bir gözlə baxar o,
Həm insana, həm daşnağa bir gözlə baxar o!

İnsanlığa böhtan ola, yox fərqi onunçün,
İnsanlara qurban ola, yox fərqi onunçün.

Hər an ölə bilməkdə hər insan bu həyatda,
Varlıqda ölümdən nədir asan bu həyatda?!

Bir halda ki yüz əlli il ömr eyləyən olmuş,
Bir halda ki bir yaşlı çocuq gül kimi solmuş.

Bir halda ki hakim kəsilib vəhşət, ədavət,
Bir halda ki vardır nə həqiqət, nə ədalət!

Bir halda ki bar-bar bağırır haq deyə haqsız,
Bir halda ki qətl olmada minlərlə yaraqsız.

Sormaq nə gərəkdir ki könüllər nədən ağlar?!
Dünya yarananda gələn ağlar, gedən ağlar!..

1987

İNANC

Mən deyirdim ki mənim gözlədiyim gün gələcək,
Bir sabah türkülərim Türkiyədən yüksələcək.

Mən yazırdım ki qaranlıq qala bilməz əbədi,
Al Günəş zülməti çarpan şəfəqiylə siləcək.

Mən duyurdum ki mənim dərdlərimi soydaşlar
Dinləyə-dinləyə birlikdə mənimlə biləcək.

Mən görürdüm ki mənim ağlayan istəklilərim
Hönkürə-hönkürə elliklə sevincdən güləcək.

İnanırdım ki alovlarla tutuşmuş qələmim
Yağılar bağrını bir ox kimi bir gün dələcək.

Söyləyirdim ki amansız acılar keçmiş olar,
Gələcək gəlməlidir, gəlməyə bilməz gələcək.

Mən bilirdim ki, igid türklərin alqışlarını
Eşidincə yapalaqlar həsədindən öləcək.

Can atırdım o canım Türkiyəyə candan mən,
Nə bilirdim ki, mənim qədrimi türklər biləcək?!

Ankara, 1988

OTUZ YEDDİDƏ

Başsız olanlar başa çıxmışdı ki
Başlılar odlandı otuzyeddidə.

Qurdlara, kaplanlara dağ çəkdilər,
Tülkülər adlandı otuzyeddidə.

Yal yalayanlar sevinib hər sabah,
Hər gecə şadlandı otuzyeddidə.

Yadlara quyruq bulayan "doğmalar"
Bizlərə yadlandı otuzyeddidə.

Kor yapalaqlar göz açıb zülmətə,
Ərşə qanadlandı otuzyeddidə.

Yurdumuzun, xalqımızın çevrəsi
Bir sürü xortdandı otuzyeddidə.

Yer üzünün ən qatı cəlladları
Bir yerə toplandı otuzyeddidə.

Zorladılar, doğradılar, asdılar,
Cövrlər əlvandı otuzyeddidə.

Zirzəmilər canlı cəsədlər dolu
Bir qəbiristandı otuzyeddidə.

Ən böyük ustadları həbs etdilər,
Dahilər oxlandı otuzyeddidə.

Cavidimiz, Müşfiqimiz var idi.
Yoxluğa yollandı otuzyeddidə.

Uğradı əl yazmaları yellərə,
Minbir əsər yandı otuzyeddidə.

Bir sürü daşnak ulusu daşladı,
Savçı Qalustyandı otuzyeddidə.

Vur dedi Qriqoryana, Melkumyana,
Enkevede "yan"dı otuzyeddidə.

Çıxdı gözü gözdə olan ərlərin,
Göz dağı tüğyandı otuzyeddidə.

Xalqın ər övladları "xalq düşməni",
Xalq necə aldandı otuzyeddidə.

Çoxları mislərlə çıxıb ortaya,
İnciləri dandı otuzyeddidə.

Mənliyi çirkab dolu dəyyusların,
Ömrü firavandı otuzyeddidə.

Qeyrəti yox bir para "şair"lərin
Ağzı dəyirmandı otuzyeddidə.

Başladılar satmağa, ustadların
Adları hallandı otuzyeddidə.

Qusdu yalan dərgi, qəzet, radio,
Mərəkə başlandı otuzyeddidə.

Mərdləri "ifşa edən" alçaqların,
Beyni burulğandı otuzyeddidə.

Sağ-salamat qalmaq üçün çoxları,
İt kimi yalmandı otuzyeddidə.

Qolladılar, yolladılar, satdılar,
Satqına cövlandı otuzyeddidə.

Məhkəməciklərdə o fitvaları,
Ərlərə tüşlandı otuzyeddidə.

Məmləkəti, milləti boğdurmağa
Ən böyük imkandı otuzyeddidə.

Millətə yad, sənətə yad kəslərin
İşləri səhmandı otuzyeddidə.

Bağları, mənzilləri, ordenləri,
Adları paylandı otuzyeddidə.

Atlar ölübdür deyə sümsüklənən
İtlərə meydandı otuzyeddidə.

Kim kimə idi ki durub söz desin,
Ölkə biyabandı otuzyeddidə.

Moskvanın şanlı Qızıl Meydanı,
Qanlı xiyabandı otuzyeddidə.

Məmləkətin taleyi bir alçağın,
Əmrinə qurbandı otuzyeddidə.

Görbagor oğlu köpəyin şöhrəti,
Rüstəmi-dastandı otuzyeddidə.

Tarixinə ayna tutan xalqların,
Haqqları tapdandı otuzyeddidə.

Ailələr getdi gedər-gəlməzə,
Kütləvi divandı otuzyeddidə.

Odladılar, yaxdılar oylaqları,
Ölkədə vulkandı otuzyeddidə.

Ölkələrə bağlı dəmir pərdənin
Sirləri pünhandı otuzyeddidə.

Bir quduz oğlu quduz, insanlığa,
Varlığa düşmandı otuzyeddidə.

Bayquşu alqışlayan alçaqların
Məqsədi virandı otuzyeddidə.

Fitnə, həsəd, məkr, riya, kin, yalan
Bir ədəb-ərkandı otuzyeddidə.

Zillətə düşmüş iri bir məmləkət,
Bir iri zindandı otuzyeddidə.

Həbs edilənlər qara qullar kimi,
Hər işə qatlandı otuzyeddidə.

Töhfələr əfsanə, zəfərlər yalan,
Qırmızı böhrandı otuzyeddidə.

Əzrayıl olmuşdu elin darğası,
Dərd, ölüm ehsandı otuzyeddidə,

Olmuş idi ölkədə hər şey baha,
Ən ucuz insandı otuzyeddidə.

Hər yalanın qarşılığı "hə" idi,
"Yox" demək üsyandı otuzyeddidə.

Bir quruş idi şərəfin qiyməti,
Fitnə-fəsad şandı otuzyeddidə.

Düşdü atından yerə ərdəmlilər,
Canilər atlandı otuzyeddidə.

Qan-qadaya bais olan kimdi, kim?
Bir zırı nadandı otuzyeddidə.

Hər əməli hiylə saçan alçağın
Hər sözü fərmandı otuzyeddidə.

Qan içən alçaq, qanı milyonların,
Yerdə qalar sandı otuzyeddidə.

Güzgüdə hər gün özünü dev görən,
Kabus o cürtdandı otuzyeddidə.

Dərd dolu, zillət dolu, zindan dolu,
Qan dolu, dövrandı otuzyeddidə.

Olmadı imdad mələk insanlara,
Tanrı da şeytandı otuzyeddidə.

1988

BİZİM ƏSRİN

Ey yer üzünün, göy üzünün nifrəti alçaq,
Alçaqlarının dadı sən oldun bizim əsrin!

Gülşənləri viranəyə döndərdin əlində,
Bayquş kimi fəryadı sən oldun bizim əsrin.

İblis sənə nisbətlə mələk oğlu mələkdir,
Ən, ən rəzil övladı sən oldun bizim əsrin.

Hər əsrdə hər an səni lənətləyəcəklər,
Hər məkrinin imdadı sən oldun bizim əsrin.

Vicdanlı olan ərlərə zindanları açdın,
Viranələr abadı sən oldun bizim əsrin.

Əmrinlə bütün ölkə həbsxanəyə döndü,
Qəbri, evi bərbadı sən oldun bizim əsrin.

Bicsən deyə əcdadını aləmdə bilən yox,
Biclər bici əcdadı sən oldun bizim əsrin.

Tarixdəki canilərə min rəhmət oxutdun,
İşgəncələr "ustad"ı sən oldun bizim əsrin.

Bir gorbagor idin, nə dişiydin, nə də erkək,
Çal bığlı dul arvadı sən oldun bizim əsrin.

Qan içdin, içində qanın ən sonda gəbərdin,
Bir nömrəli cəlladı sən oldun bizim əsrin!

1977

VARDIR

Paytaxtını sorsan, deyər üç min yaşı vardır,
Təsdiqləyən anbarda çopur bir daşı vardır.

Yurdunda olanlar hamısı boynu bükükmüş,
Xaricdəsə üç milyon itən qardaşı vardır.

Bir milyonadək sanki gəbərmiş iki gündə,
Guya ki qırılmışları addımbaşı vardır.

Şairlərinin saçdığı kin, yazdığı böhtan,
Alimlərinin alveri var, daşbaşı vardır.

Gəz aləmi, bunca yalana aşiq olan yox,
Gör hansı diyarda bu qədər çox naşı vardır!

Dövlət kimi bir əsrdə şöhrətli deyilkən,
Millət kimi ardında duran dindaşı vardır.

Kimlər buyurub, qurdu basar arxalı itlər?
Qurd oğlu basılmaz, nə qədər yurddaşı vardır!

Adlar da, soyadlar da bizim dildən alınmış,
Hər türkümüzün orda bir ortaqdaşı vardır.

Torpaq da bizim, göl də bizim, çay da bizimdir,
Adlar dəyişilməkdə, işin uğraşı vardır.

Bir tayfa ki, dünyanı gəzir cingənələrtək,
Haqmı, bağırarsa soyu var, soydaşı vardır?!

Hər millətin öz adəti, öz tarixi olmuş,
Tarixə yamaq tayfaların boş başı vardır.

Olmuşmu məgər milli xörək özgə dilində,
Get gör, aşı var, dolması var, bozbaşı vardır.

Basdırma, kabab, küftə tələffüz edə bilməz,
Əslində ayaqdan bişirilmiş xaşı vardır.

Cəllad kəsilən Andranik andıra qalsın,
Alçaq olanın alçaq olan sirdaşı vardır.

Heykəl də yapılmış ona qansızlar əliylə,
Qan içdiyinin şahidi min çağdaşı vardır.

Əlbəttə ki, bir gün çıxacaqdır üzə gerçək,
Hər hiylənin, əlbəttə ki, bir gün faşı vardır.

Tarix! O həqiqət dolu bir məhkəmədir ki,
Tarixdə əzəldən əbədi yaddaşı vardır!..

1970

CASUS

Kim ki yurdunda gedib casus olur,
Anadangəlmə o, binamus olur!..

BACARMAMIŞ

Kim yer üzündə yurdla, ulusla ucalmamış?!
Yurddan, ulusdan alçaq adamlar güc almamış!
Sözlərlə türkü yapmaq olur şirin işi,
Sözlərlə türkü yapmağı hər kəs bacarmamış!..

BİR TÜRKÜM OLAYDI

Bir türküm olaydı, ona ustadlar uyaydı,
Şairlənib, ilhama gələydi eşidənlər.
Bir şerim olaydı, onu aləm oxuyaydı,
Hər beytini şah beyt bileydi eşidənlər...

MİRASIM

Gözümdə ulusa bağlı bir murad,
Könlümü türkülər açıqlar sizə.
Ata ocağında ləkəsiz bir ad
Mirasım olacaq, çocuqlar, sizə...

TÜRKÜLƏRİM

Yerdə şimşək kimi çaxsın dilərəm türkülərim,
Düşmənin köksünü yaxsın dilərəm türkülərim.
Çağlayıb sel kimi içdən alışan bağrımdan,
Ulusun könlünə axsın dilərəm türkülərim.

YAXŞIDIR, OĞLUM

Yaxşılar gözəllik nuru yayırlar,
Yaxşılıq gözəlin naxşıdır, oğlum.
Yaxşı adamları gözəl sayırlar,
Gözəl o kəsdir ki, yaxşıdır, oğlum!

OLMAZ

Ulus kimi yar olmaz,
Yurd kimi diyar olmaz,
Yurdsuz, ulussuz qalan
Şair bəxtiyar olmaz!

KİM GÖRÜB

Çirkinliyi pisləməyən olubmu?
Gözəlliyi pisləyəni kim görüb?!
Gözəl olmaq istəməyən olubmu?
Çirkin olmaq istəyəni kim görüb?!

* * *

Ulu yurddan ulu ilhamını almış könlüm,
Bir ulus yurda ömürlərcə nəfəs verməzmi?!
Mənim irqimdən olanlarla ucalmış könlüm,
Mənim irqimdən olanlar mənə səs verməzmi?!

1985

* * *

Ulusum adlı-sanlı ordumdur,
Ulu yurdumdan almışam ilham.
Günəşim yer üzündə yurdumdur,
Ulusumdur mənim könül dünyam!

* * *

Gözüm gülər ana yurda baxınca,
Doğma ulus türküləri səsimdir.
Özgə dildə on kitabım çıxınca,
Öz dilimdə bir kitabım bəsimdir!

1985

* * *

Dilimin türküsüdür dalğalanır dörd qütbə,
Okeanlar kimi dörd üfqə uzanmış ulusum.
Əbədiyyətdən **alıbdır** əbədi bir rütbə,
Məmləkət sevgisini bayrağı sanmış ulusum!

1984

* * *

Ulu Tanrım kimidir məmləkətim,
Ulusun tilsimidir məmləkətim!
Ciyərim rüzgarının yelkənidir,
Könlümün iqlimidir məmləkətim!

* * *

Anam nə dildə mənə layla söyləmişsə, o dil
Könül sazımda dinir, bir sözüm yabançı deyil!

DAĞLAR NƏĞMƏSİ

Aləmi var dağların,
O sönməz ocaqların,
O nurlu oylaqların,
Sevincli bulaqların
Gözündəki yaş deyil,
Rüzgarları titrədər,
Köhlənləri büdrədər,
Sürülər gəlib-gedər,
Quşlar çobanlar qədər
Dağlara sirdaş deyil.

Töhfədir mahallara,
Zirvədir xoyallara,
Müjdədir marallara,
Kim deyir, qartallara
Dağlar arxadaş deyil?

Gəmisi, Nuhu vardır,
Dumanı, ahı vardır,
İçində ahu vardır,
Dağların ruhu vardır,
Torpaq deyil, daş deyil.

1984

* * *

Qızılgül gülümsər, bülbül qan ağlar,
Zavallı pərişan-pərişan ağlar,
Yanmayan nə bilsin nə yaman ağlar,
Sanki dağ başında bir duman ağlar,
İçində yanıqlı bir kaman ağlar,
Halına yer ağlar, asiman ağlar,
Ayrılıq çəkənlər hər zaman ağlar.

1985

* * *

Doymaram hüsnünün ülviliyindən,
Ruhun yabançıdır yasaq şeylərə.
Gözəl gözlərinin maviliyindən
Mavi yol görünür mavi göylərə.

BİR ŞAİRƏ

Olmaz, bu gerçəyi ola bilməz yalan sanan,
Şerə sənin qədər vurulan olmamış, inan!

Yoxdur sənin kimi gecə-gündüz coşan, yanan,
İlhamını, rübabını insanmıdır danan?!

UMUTSUZLUQ

Umutsuzluq çəkilməz bir bəladır, uğrayandan sor,
Nə möhnətdir bu möhnət, möhnətindən ağlayandan sor.
Umutsuzlar nələr çəkməkdədir, bilmək dilərsənsə,
Mənimtək bağrını hər gün əliylə doğrayandan sor.

1987

İLHAM

İlham o ilahi bir gəlişdir,
Ulduzlara doğru yüksəlişdir!

YAŞAYAR

Bir könül duymalıdır yurd səsini,
Yurd səsiylə yaşayar mahirlər.
Yaşayar, yurdla ulus sevgisini
Türküsüylə yaşadan şairlər!

ANCAQ

Hünərdir yaşamın qədrini bilmək,
Yaşamaq ərlərə deyil oyuncaq.
Həyatda hər şeydən kolaydır ölmək,
Yaşamaq hər şeydən çətindir ancaq.

ƏRƏN

Ulusla yurdu sevdirən,
Könüllərə inanc verən
Gözəl diləkli şairə
Ərən deyər ulus, ərən.

1987

* * *

Çağlayanlar kimi ruhum çağlar,
Çağlayan ruha yasaq alçaqlar.

Dinlə avazımı yüksəklərdən,
Anla üsyanımı şimşəklərdən.

Mənim öz aləmim, öz seyrim var,
Öz yolum, öz səsim, öz şerim var!

Məni sən özgəyə bənzətmə, canım,
Varlığımdır can Azərbaycanım!

1986

* * *

Bəzi "şeirşünaslar" məni eşitsə, gözlə!
Şerin sirri açılar bəlkə azacıq ona!
Filosof yazısında şairlik etsə, gözəl,
Şair fəlsəfəçilik edirsə, yazıq ona...

* * *

Qaş incə bəzəkdir,
Gözsüz qaşa bir kimsə vurulmaz!
Saç başda qəşəngdir,
Başsız saça heyran olan olmaz.

İYİLİK

Kim yamanlıq dilədi, mən iyilik etdim ona,
İyilik etdim, iyi olmağı öyrətdim ona.

* * *

Arkadaş, dinlə könül sözlərimi,
Qopsa tufan, qapamam gözlərimi,
Görürəm gün kimi gündüzlərimi
Mən nə xulya, nə masal şairiyəm!

Taleyi qurcalanan bir ulusun,
Qoruna qor calanan bir ulusun,
İkiyə parçalanan bir ulusun
Birliyə bağlı vüsal şairiyəm!

Sanma bir zəlzələdən ürkəm mən,
Qranitdən mətinəm, bərkəm mən,
Adı dillərdə gəzən Türkəm mən,
Ulu yurdum ulusal şairiyəm!..

1980

ULUSUM

Mənə "sus" söylədinmi? Mənmi susum?!
Qələmimlə dinir böyük ulusum!
Ulusum yurdumun ki mənliyidir,
Namusumdur mənim o, namusum!

SEVGİDİR ÖMÜR

Sevməyən insana ömür yedəkdir,
Sevənlər söyləməz ömür gödəkdir!
Ömür nə deməkdir? Sevgidir ömür!
Sevgi nə deməkdir? Qadın deməkdir!..

DÜNYANIN LƏZZƏTİ

Qadınlar eşqinə dinər kaman, saz,
Sevgi onlardadır, ruh onlardadır.
Qadınlar olmasa şairlər olmaz,
Dünyanın hikməti qadınlardadır!..

FƏRQİ YOXDUR

Fərqi yoxdur, az yaşa, ya çox yaşa,
Çarpacaqdır yelkənin bir gün daşa.

YAMAN OL DEMƏYİN

Mənə yaman olan, sənə yaxşıdır,
Sənə yaxşı olan yamandır mənə.
Yamana yaxşılıq yenə yaxşıdır,
Yaman ol deməyin, amandır, mənə...

UMDUĞUMUZ GÜN GƏLƏR

Umduğumuz gün gələr,
Haqq yenə üstün gələr!

Dalğalanar ordumuz,
Cənnət olar yurdumuz.

Qovğalanar Kür, Araz,
Səbr gərəkdir bir az.

Dağ çəkək alçaqlara,
Bir sürü daşnaqlara.

Umduğumuz gün gələr,
Bayrağımız yüksələr!

Türklərə batmaq çətin,
Qeyrəti var millətin!

Dağ kimi yurddaşlarıq,
Qurdlara qurddaşlarıq.

Bilməlidir tülkülər,
Umduğumuz gün gələr!

1980

BAHAR GƏLMİŞ

Bahar gəlmiş, əziz dost,
Baharlanmış təbiət,
Sanarsan, asimandan
Enib dünyaya cənnət.

Bahar gəlmiş, əziz dost,
Gülür bağlar, yamaclar,
Ətirlənmiş çəmənlər,
Çiçəklənmiş ağaclar.

Bulaqlar nəğmələnmiş,
Dodaqlar nəğmələnmiş,
Dumanlandıqca dağlar,
Sular riqqətlə çağlar.

Bahar gəlmiş, əziz dost,
Gülür sevdalı ellər,

Məhəbbət türküsüylə
Qanadlanmış könüllər.

Bahar gəlmiş, əziz dost,
Bahar gəlmiş, bahardır,
Baharı varlığıyla
Duyanlar bəxtiyardır!

DEYƏSƏN...

Mənə çox görürlər ölümü, belə
Deyəsən, hələ çox yaşayacağam.
Həyatın yükünü daşıyacağam,
Canım çox müsibət çəkəcək hələ.

Deyəsən, hələ çox yaşayacağam,
Hələ gözləyəcək bu torpaq məni.
Hələ çox iztirab yaxacaq məni,
Yurdu ağılarla oxşayacağam.

Deyəsən, hələ çox yaşayacağam,
Həsrətim bağrımı dələcək mənim.
Nə bugün, nə də ki gələcək mənim,
Ulu keçmişimdə qalan bir çağam.

Dərdimi özümlə biləcəyəm mən,
Ulusun oduyla yanan ocağam,
Deyəsən, hələ çox yaşayacağam,
Deyəsən, hələ çox öləcəyəm mən...

1989

YARPAQLAR TÖKÜLÜR

Yenə sonbahar gəlib,
Çiçəklər bükülür, ah,
Ağaclar nə kövrəlib!
Yarpaqlar tökülür, ah!

Kədərlidir baxışlar,
Xəzəllikləri gülür, ah!
Görür zavallı quşlar,
Yarpaqlar tökülür, ah!

Dan yeri sökülür, ah,
Qaranlıq çökülməsin!
Yarpaqlar tökülür, ah,
Ulduzlar tökülməsin...

1980

QƏHRƏMANLIQLARIMIZ

Yaşıl, al, mavi, ay, ulduz parlar
Milli bayraq, ona ziynət qandır.
Yağılar süngümüzə çarparlar,
Qəhrəmanlıqlarımızlardandır!..

ÖYLƏ BİR ŞEY...

Nə zaman eyləyəcək risk ərlər,
Yapa bilməzmi silah misgərlər?!

Ordusuz bir ulusun yurdu batar,
Nerdədir, nerdə bizim əsgərlər?!

Ölkəmizdə pozulur abadlıq,
Hər tərəfdə görünür bərbadlıq.

Hüseyn Cavidə rəhmət oxuyun:
Burda təlim edilir cəlladlıq!

Sanki artıq nə quzey var, nə güney,
Dəli könlüm havalanmış bir ney!..

Ey Zəka, bunca qaranlıq olmaz,
Duyuram mən, olacaqdır bir şey!..

1980

ÜRƏKDƏN, CANDAN

Azmı tufanlara üz çevirdiyim,
Quduz dalğalara köküs gərdiyim,
Şeir dünyasına könül verdiyim
Dunyanı duyduğum andandır mənim.

Gözəllik önündə ruhum oynayıb,
Parlaq incilərdən gözüm doymayıb,
Ulu ustadlara qanım qaynayıb,
Onlara uymağım qandandır mənim.

Yerim yer üzündə qürbət olanda,
Bezməyin, söhbətim qeybət olanda,
Neyləyim, yurduma həsrət olanda,
Kainat başımda zindandır mənim.

Mənim gizlilik yox təbiətimdə,
Açıqdır kinim də, məhəbbətim də,
Ürək xiffətim də, can möhnətim də
Ürəkdəndir mənim, candandır mənim!

Varmı mənim qədər olan bağrı dağ,
Bağrımın başında bitməz ağrı, dağ,
Ulduzum Ağrıdağ, Ayım Ağrıdağ,
Amansız dumanım ondandır mənim.

Qartallar ucalan yerdə tülkü yox,
Sazımda, sözümdə yasaq türkü yox,
Könlümdə, gözümdə qorxu-ürkü yox,
Çünki ulu babam Vandandır mənim!

Olmaz yalan tarix, nəs il şöhrətim,
Ulu Oğuzxandır nəsil şöhrətim,
Uluslar bilir ki, əsil şöhrətim
Şərəfdəndir mənim, şandandır mənim!

Özgürlük özlədim mən ömrüm boyu,
Aradım havanı, torpağı, suyu,
Köküm Türk köküdür, soyum Xan soyu,
Adım Rəfiq Zəka Xəndandır mənim!

BÖYÜK ÇOCUQLAR

Şairlər dünyada yalan deməzlər,
Qəlbi açıqlardır şairlər, gülüm!
Aldanmaq istərlər, heç böyüməzlər,
Böyük çocuqlardır şairlər, gülüm!

ZAVALLI BÜLBÜL

Yenə də gülşəndə zavallı bülbül
Bir gülə, bir xara baxıb ağlayır,
Sən də ağlayırsan yenə, ey könül,
O, sənin bağrını yaxıb ağlayır.

EY RƏFİQ

Ey Rəfiq, mən atamın öfkəsiyəm,
O günəşdir, mən onun kölgəsiyəm.

Ey Zəka, zülmətə bənzər bu həyat,
Yenə hicran, yenə hicran, heyhat!

Dilərəm indi ürəkdən, candan,
Yox olam, var ola Cəfər Xəndan!

YANDIRARAM

Yurduma xor baxanı yandıraram,
Yaxaram, bağrını odlandıraram!
Kim olur-olsun, onu damğalayıb,
Xalqımın düşməni adlandıraram!

SƏRHƏDLƏR

Kimlər qoca dünyamızı sərhədlərə bölmüş?
Həsrətlilərin arzusu könlündə gömülmüş!

Ulduzlara yüksəlmək üçün yollar açıqdır,
Qartallara yollarda buludlar alaçıqdır.

Bir millətə sərhəd yaradan səd nə deməkdir?
Göy yerlərə söylər ki bu sərhəd nə deməkdir?!

1981

SARI BÜLBÜL

Gülün eşqiylə nədəndir çağlar,
Çağlamaqdan darılıbdır bülbül.
Könlüm ağlar kimi bülbül ağlar.
Ağlamaqdan saralıbdır bülbül.

ŞAİR

Torpağa bağlı qalmayan şair
Sanki dibçəkdə kol kimi yaşayır.

ÖMRƏ BƏDƏL

İlk sevginin ilk duyğusu ən dadlı əməldir,
İlk sevginin ilk duyğusu bir ömrə bələdlir.

ULUSUMUN ÜRƏYİNCƏ

BAYRAĞIM

Dalğalanan dan yeridir bayrağım,
Üfüqlərdən üfüqlərə boylanar.
Zirvəsində saxlar onu hər dağım,
Haydı desəm qartal olub haylanar.

İşıqlanar şimşəyiylə yer, səma,
O bir canlı ildırımdır, ildırım.
Gərək onu Günəş kimi daima
Ulduzlardan ulduzlara qaldırım.

Kim endirər ay-ulduzlu bayrağı,
Şölə saçan üç alovlu rəngi var!
Süngüsündə Oğuzxanın mızrağı,
Türküsündə Koroğlunun cəngi var!

Ürəklərdə alovdur o, oddur o!
Ocaq yoxsa alov da yox, od da yox!
Yurddaşlara ulusdur o, yurddur o,
Bayraq yoxsa, ulus da yox, yurd da yox!

1987

TƏKBAŞINA

Ağlaya bilməz igid, gözyaşı bilməz nə demək,
Ulu yurddaşlar inanmaz igidin göz yaşına!
Onun ömrü ulu gerçəkdə bir əfsanə demək,
Yurd yolunda ölümə doğru gedər təkbaşına!

DƏDƏ QORQUD OCAĞI

Yurdumun dörd bucağı
Dədə Qorqud ocağı!
Cənnətin aynasıdır
Ana yurdun qucağı.

DAVRANSANA

Canlılar eşqiylə bir an yansana,
Canlılarda suç bulunmaz, qansana!
Canlılardan düşmən olmaz insana,
Ovçu, sən insan kimi davransana!

O YAR

Halımı özgələr duyarmı ola?
Könlümə başqa gül uyarmı ola?
Yar mənim bağrımı oyarmı ola?
Mənə düşmən olan o yarmı ola?

İMDAD

Ey Zəka, bir şairin ki parlaq istedadı var,
Neyləyir imdadı, istedadı var, imdadı var!

DUYĞULAR

Duyğular var məndə,
Uca dağlar aşacaq.

Saxlanıbdır çəndə,
Sabah aydınlaşacaq.